Azərbaycan .-2023.- 4 noyabr, № 242.- S.5.

# Naxçıvanda inkişaf genişmiqyaslı xarakter alıb






Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatların rəhbərləri Naxçıvan şəhərinə səfər ediblər. Onlar öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsinin ziyarət ediblər.

Sonra AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Culfa rayonunda yerləşən "Darıdağ Arsenli Su Müalicə Mərkəzi" MMC-yə və tikintisi davam etdirilən Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinə baxış keçirib, kompleksdə aparılan abadlıq-quruculuq işləri və mərkəzdə yaradılan şəraitlə tanış olub və pasiyentlərə göstərilən xidmətin daha da yaxşılaşdırılması üçün bəzi tapşırıqlar verib.

Şahbuz rayonunun Ağbulaq kəndində yerləşən AHİK-ə məxsus "Ağbulaq" istirahət mərkəzinə də baş çəkilib. Mərkəzdə istirahət edənlərin qaldığı korpus otaqlarına, kotteclərə, həmçinin yeməkxanaya və mətbəxə baxış keçirilib, turistlərin dincəlməsi üçün yaradılmış şəraitlə tanış olunub. İstirahət mərkəzi dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir və 76 nəfərin qala biləcəyi 38 otaqla fəaliyyət göstərir.

AHİK sədri həmçinin istirahət mərkəzinin nəzdində olan Xizək mərkəzində də olub. Bildirilib ki, mərkəzdə ümumi uzunluğu 1600, eni isə 30 metr olan dağ-xizək enişi, kanat yolu, süni qaryaratma sistemləri, xizəksürmə məktəbi mövcuddur. Mərkəzdə ixtisaslı təlimçilər müxtəlif hazırlıq səviyyəsi olan xizəkçilər üçün təlimlər keçir və təhlükəsizlik qaydalarını izah edirlər. Mərkəzin əsas infrastrukturu kanat yoludur. Uzunluğu 952 metr olan kanatın başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi 267 metrdir. Turistlərə göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi ilə bağlı mərkəz rəhbərliyinə tapşırıqlar verilib. Səttar Möhbalıyev həmçinin "Duzdağ" hotel və Duzdağ Fizioterapiya Mərkəzinə baxış keçirib.

* * *

Dövlət başçısının aztəminatlı, şəhid və qazi ailələrinin sosial problemlərinin həlli istiqamətində həyata keçirdiyi tədbirlərə dəstək məqsədilə 2023-cü ilin son 5 ayı ərzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının maliyyə dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən ümumilikdə 6450 aztəminatlı, o cümlədən şəhid və qazi ailələrinə sovqat yardımı paylanılıb. Bu tədbirlərin davamı olaraq noyabrın 3-də Zəfər Günü ərəfəsində digər bölgələrlə yanaşı, Naxçıvanda yaşayan 1250 aztəminatlı ailə üçün ərzaq bağlamalarından ibarət yardım təşkil olunub.

Bu məqsədlə təşkil olunan mərasimdə AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iştirak edib. Məlumat verilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün gətirilmiş bayram sovqatları müxtəlif zəruri ərzaq məhsullarından ibarətdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*